**Azərbaycan Respublikası**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının**

**S Ə R Ə N C A M I**

*№ 21* *13 mart 2019-cu il*

**Siyəzən rayonunun gəncləri arasında könüllülük fəaliyyətinin təşviq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nın 5.7.5-ci yarımbəndinə əsasən gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Könüllülük fəaliyyətinə cəlb olunan gənclərlə sistemli işin təşkili məqsədi ilə Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Kərimov Elvin Qorxmaz oğlu könüllülərlə iş üzrə koordinator müəyyən edilsin.

2. Könüllülərlə iş üzrə koordinator Elvin Kərimova tapşırılsın ki:

2.1.Rayon gəncləri arasında könüllülük fəaliyyətinin daha geniş təşviq edilməsi məqsədi ilə tədbirlər planı hazırlasın və Siyəzən Rayon İcra Hakimiyyəti başçısına təqdim etsin;

2.2.Bu sahədə fəaliyyətini Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirsin.

3.Sərəncamın icrasına nəzarət və könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb edilmiş şəxslərlə müqavilə bağlamaq səlahiyyəti Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini Təhminə Bəxtiyarovaya həvalə edilsin.

4. Görülmüş işlər barədə rübdə bir dəfə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına məlumat verilsin

**Asif Hüseynov**